Xalq qəzeti

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 72**

**Bakı şəhəri, 7 mart 2023-cü il**

***"Qida və yem məhsullarının, habelə qida məhsulları ilə təmasda olan material və məmulatların nümunələrinin sınaq laboratoriyalarında tədqiqinə (sınağına) görə xidmət haqqının məbləği"nin təsdiq edilməsi haqqında***

"Qida təhlükəsizliyi haqqında" Azərbaycan Respublikasının 2022-ci il 5 may tarixli 523-VIQ nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin "Yeyinti məhsulları haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 2000-ci il 26 yanvar tarixli 267 nömrəli, "Yeyinti məhsulları haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi ilə bağlı əlavə tədbirlər barədə" 2003-cü il 23 oktyabr tarixli 969 nömrəli fərmanlarının ləğv edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 24 iyun tarixli 1723 nömrəli Fərmanının 1.1.9-cu yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** "Qida və yem məhsullarının, habelə qida məhsulları ilə təmasda olan material və məmulatların nümunələrinin sınaq laboratoriyalarında tədqiqinə (sınağına) görə xidmət haqqının məbləği" təsdiq edilsin (əlavə olunur).

**2.** Müəyyən olunsun ki, bu Qərarın 1-ci hissəsi ilə təsdiq edilmiş xidmət haqqının məbləği "Qida Təhlükəsizliyi haqqında" Azərbaycan Respublikası Qanununun 24.13-cü, 25.6-cı, 26.4-cü və 31.4-cü maddələrində qeyd edilən məqsədlərlə götürülmüş məhsul nümunə-lərinin tədqiqi (sınağı) Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin tabeliyində olan Azərbaycan Qida Təhlükəsizliyi İnstitutunun akkreditasiya edilmiş sınaq laboratoriyalarında aparıldığı halda tətbiq edilir.

**3.** Bu Qərarda dəyişiklik Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 24 avqust tarixli 772 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının hazırlanması və qəbul edilməsi qaydası haqqında Əsasnamə"nin 2.6-1-ci bəndinə uyğun edilə bilər.

**4.** Bu Qərar 2023-cü il yanvarın 1-dən tətbiq edilir.

**Əli ƏSƏDOV,**
**Azərbaycan Respublikasının**
**Baş naziri**